Əhmədova Elza Eldar qızı,
Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyat kafedrasının baş müəllimi
Ünvan: Bakı şəhəri, Həsən Əliyev küçəsi, 135
E-mail: eahmadova@internet.ru
Əlibəyli-Abdullayeva Lamiyə Məmməd qızı,
Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyat kafedrasının müəllimi
Ünvan: Bakı şəhəri, Həsən Əliyev küçəsi, 135
E-mail: alibeyli1971@mail.ru

UOT 347
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0146

MƏNƏVİ ZƏRƏRƏ GÖRƏ KOMPENSASİYA HÜQUQUNUN MAHİYYƏTİ

Açar sözlər: *Mülki Məcəllə, hüquq, dövlət, fiziki şəxs, maddə.*

Ключевые слова*: Гражданский кодекс, право, государство, физическое лицо, статья.*

Keywords: *Civil Code, law, state, physical person, article.*

Mənəvi zərərə görə kompensasiyanın ödənilməsi uzun illərdir ki, hüquq nəzəriyyəsində və praktikada müzakirə predmetidir. Bu institut keçmiş SSRİ-nin ayrı-ayrı qanunlarında, habelə Azərbaycanın 1923-cü il və 1964-cü il Mülki Məcəllələrində nəzərdə tutulmamışdır.

12 iyun 1990-cı ildə "Mətbuat və digər kütləvi informasiya vasitələri haqqında" SSRİ Qanunu qəbul edildi. Həmin Qanunda ilk dəfə olaraq vurulmuş mənəvi zərərə görə pul formasında ödəmənin mümkünlüyü göstərildi. Qanunun 39-cu maddəsində deyilirdi: "Kütləvi informasiya vasitələrində həqiqətə uyğun olmayan, vətəndaşın şərəf və ləyaqətini ləkələyən məlumatların yayılması nəticəsində vətəndaşa dəymiş mənəvi zərər və ya digər qeyri-əmlak zərəri kütləvi informasiya vasitələri tərəfindən, həmçinin təqsirkar vəzifəli şəxslər və vətəndaşlar tərəfindən məhkəmənin müəyyən etdiyi məbləğdə pul formasında ödənilir [8].

31 may 1991-cı il tarixdə qəbul edilmiş SSRİ-nin və müttəfiq respublikaların Mülki Qanunvericiliyinin Əsasları mənəvi zərərə fiziki və mənəvi iztirab kimi anlayış verərək hüquq tətbiqi təcrübəsini bir qədər asanlaşdırdı. Mənəvi zərərə görə məsuliyyətin müəyyən edilməsi Əsasların iki normasında əksini tapmışdı. 131-ci maddə vətəndaşların hər hansı subyektiv hüquqlarının və nemətlərinin pozulması nəticəsində vurulmuş mənəvi zərərin ödənilməsi üçün məhkəməyə müraciət etmənin mümkünlüyünu nəzərdə tuturdu. Lakin SSRİ-nin dağılması nəticəsində yaranmış müstəqil dövlətlərin əksəriyyətinin qanunvericiliklərində ilk dövrlərdə adıçəkilən institut öz əksini tapmamışdı.

Azərbaycan Respublikasında müstəqillik dövründə qəbul edilmiş ilk normativ hüquqi aktlarında mənəvi zərərin kompensasiyası institutu öz əksini tapdı. "Kütləvi informasiya vasitələri haqqında" 21 iyul 1992-ci il tarixli

Azərbaycan Respublikasının Qanunu (11 mart 2001-ci il tarixli Qanunla qüvvəsini itirmişdir, hal-hazırda "Media haqqında" 30 dekabr 2021-ci il tarixli Azərbaycan Respublikasının Qanunu qüvvədədir), "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" 19 sentyabr 1995-ci il tarixli Qanun, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" 29 dekabr 1998-ci il tarixli Qanun, 1 fevral 1999-cu ildə qəbul edilmiş Əmək Məcəlləsi (maddə 290) bunun bariz nümunəsidir. Amma təəssüflər olsun ki, yeni iqtisadi münasibətlərin tənzimlənməsi məqsədilə qəbul edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsi mənəvi zərərə anlayış vermir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 31 may 2002-ci il tarixli Qərarında göstərilir ki, hər bir hüquq pozuntusu sosial mənada ictimai münasibətlərə mənfi təsir göstərdiyindən zərər (ziyan) törədir. Bu baxımdan zərər sosial və hüquqi aspektlərə malikdir. Zərər yetirmə şəxsin və yaxud təşkilatın subyektiv hüququnu pozur. Bununla yanaşı, mülki hüquqda zərər ona görə sosial məna kəsb edir ki, subyektiv hüququn pozulması müəyyən edilmiş və qanunla qorunan obyektiv hüquqların pozulması ilə müşayiət olunur.

Zərər forma və məzmunundan asılı olaraq əmlak və qeyri-əmlak xarakterli olur.

Mənəvi zərər adətən vətəndaşların şəxsi qeyri-əmlak hüquqlarının pozulması nəticəsində əmələ gəlir. Mənəvi zərər qeyri əmlak zərəri olmaqla iqtisadi məzmun və dəyər kəsb etməyən hüquq pozuntusudur. Belə zərər vətəndaşa anadangəlmə və ya qanun əsasında ona məxsus olan qeyri-maddi nemətlərə aid (şərəf, ləyaqət, işgüzar nüfuz, şəxsi ailə sirri, hərəkət etmək azadlığı, yaşayış yeri seçmə, ad hüququ, müəlliflik hüququ, sair şəxsi qeyri-əmlak hüquqlar və digər maddi nemətlər) hüquqlarını pozmaqla fiziki şəxsə mənəvi sarsıntı, iztirab verir. Mənəvi zərər bilavasitə zərər vuran şəxsin hərəkətlərindən sonra zərər çəkmişin şüuruna təsir göstərməklə mənfi psixoloji reaksiyaya səbəb olur. Mənəvi zərər vətəndaşların hüquqlarının pozulmasının müstəqil nəticəsidir. O həm vurulmuş əmlak zərəri ilə birlikdə, yaxud əmlak zərəri vurulmadığı hallarda kompensasiya edilir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21-ci maddəsinin müddəaları yalnız real zərərin, habelə əldən çıxmış faydanın ödənilməsini nəzərdə tutur. Həmin Məcəllənin 23-cü maddəsində nəzərdə tutulmuş zərər dedikdə şərəfin, ləyaqətin və işgüzar nüfuzun ləkələnməsi ilə bağlı şəxsə dəymiş mənəvi zərər (fiziki və mənəvi iztirablar) və maddi zərər başa düşülür.

Mənəvi zərərin ödənilməsi, habelə qanunvericilikdə nəzərdə tutulmuş başqa məhdudiyyətlərin tətbiq edilməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə qorunan digər əsas hüquq və azadlıqlarla mütənasib olmaqla hər bir konkret halda məhkəmənin mülahizəsindən asılıdır [3].

Mənəvi zərərin ödənilməsinin zəruriliyi bir sıra beynəlxalq sənədlərdə də əks olunmuşdur. Məsələn, Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1985-ci il 29 noyabr tarixdə qəbul etdiyi "Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında" Bəyannamənin 1-ci maddəsində qeyd olunur ki, "qurbanlar" termini altında üzv dövlətlərin hakimiyyətdən cinayətkar sui-istifadəni qadağan edən qanunlar daxil olmaqla, milli cinayət qanunlarının pozulması nəticəsində bədən xəsarəti və ya mənəvi ziyan, emosional əzab, maddi zərər, yaxud əsas hüquqların xeyli dərəcədə sıxışdırılması daxil olmaqla fərdi, yaxud kollektiv şəkildə zərər yetirilən şəxslər başa düşülür

"Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 noyabr 2008-ci il

tarixli 7 nömrəli Qərarının 1-ci və 2-ci bəndlərində deyilir: "Məhkəmələrə izah edilsin ki, mənəvi zərərin ödənilməsi barədə iddialara baxarkən Azərbaycan Respublikasının Konstitusiyasını, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya"nı, bu Konvensiyaya dair Protokolları, mənəvi zərərin ödənilməsini nəzərdə tutan milli qanunvericilik aktlarını, habelə Avropa İnsan Hüquqları Məhkəməsinin presedentlərini rəhbər tutmalıdırlar.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya"nın 41-ci maddəsinə və Avropa İnsan Hüquqları Məhkəməsinin presedentlərinə əsasən mənəvi zərər şəxsə qeyri-əmlak, habelə əmlak zərəri vurulduqda kompensasiya edilə bilər. Konkret hüquq münasibəti üzrə milli qanunvericilik aktında mənəvi zərərin ödənilməsinin mümkünlüyü barədə birbaşa göstərişin olmaması bu barədə tələbin rədd edilməsi üçün əsas deyildir. Mənəvi zərərin vurulması ilə əlaqədar yaranan hüquq münasibətlərinə müvafiq qanunvericilik aktları, habelə Azərbaycan Respublikası Mülki Məcəlləsinin IX bölməsinin (Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər) qaydaları tətbiq edilir.

Plenum izah edir ki, Azərbaycan Respublikası qanunvericiliyinin, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya"nın müddəaları və Avropa İnsan Hüquqları Məhkəməsinin presedentləri baxımından "mənəvi zərər" anlayışı insanın anadangəlmə və ya qanun əsasında ona mənsub olan şəxsi qeyri-əmlak xarakterli hüquq və azadlıqlarının, habelə əmlak hüquqlarının pozulması nəticəsində mənəvi sarsıntı və iztirab keçirməsini ifadə edir.

Zərərçəkən fiziki şəxsin mənəvi sarsıntı keçirməsi dedikdə, ona qarşı törədilən qanunsuz hərəkətin və ya hərəkətsizliyin şüurunda müəyyən mənfi psixi reaksiyaya səbəb olması, iztirab keçirməsi dedikdə isə onun sağlamlığının pozulması nəticəsində fiziki əzab çəkməsi anlaşılır. Mənəvi zərərin ödənilməsi ilə əlaqədar qanunvericiliyin müddəaları nəzərə alınmaqla şəxsə mənəvi zərər vurulması onun yaxın qohumlarını və ya iş yerini itirməsi, fəal ictimai həyat tərzindən məhrum olması, şəxsi, ailə və tibbi sirlərinin açıqlanması, şərəf, ləyaqət və işgüzar nüfuzunun ləkələnməsi, hər hansı başqa hüquqlarının müvəqqəti olaraq məhdudlaşdırılması və ya həmin hüquqlardan məhrum olması, sağlamlığına xəsarət yetirilməsi və s. hallarda özünü büruzə verə bilər. Mənəvi sarsıntı və iztirabın ağırlıq dərəcəsi mənəvi zərərin ödənilməsi tələbinin rədd edilməsi üçün əsas deyildir" [4].

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsinin şərh edilməsinə dair" 24 aprel 2020-ci il tarixli Qərarında göstərilir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsi şəxsin hüquqazidd hərəkətlər nəticəsində öldüyü və ya sağlamlığına zərər vurulduğu halda onun yaxınlarının, o cümlədən ailə üzvlərinin keçirdikləri mənəvi sarsıntı və iztiraba görə təzminat almaq hüququnu ehtiva edir.

Ölmüş və ya sağlamlığına zərər vurulmuş şəxsin yaxınları, o cümlədən ailə üzvləri keçirdikləri mənəvi sarsıntı və iztirabın dərəcəsinə, zərərçəkmiş şəxsə yaxınlıq dərəcəsinə və s. amillərə müvafiq olaraq birgə və ya ayrı-ayrılıqda təzminat almaq hüququna malikdirlər [2].

"Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 24 dekabr 2025-ci il tarixli, 20 nömrəli Qərarının bir sıra müddəaları da mənəvi zərər məsələsinə həsr olunmuşdur [5]. Məsələn, həmin Qərarın 5-ci bəndində göstərilir ki, mənəvi zərər – fiziki şəxsin şəxsiyyət hüquqlarının pozulması nəticəsində keçirdiyi sarsıntı və (və ya) iztirabdır.

Mənəvi sarsıntı – şəxsiyyət hüquqlarına müdaxilə nəticəsində fiziki şəxsin daxili sabitliyini pozan iztirab həddinə çatmayan neqativ emosi-

onal vəziyyətidir (stress, qorxu, qəzəb, kədər, alçalma, utanma, məyus olma, qıcıqlanma, uzun müddət davam edən qeyri-müəyyənlik və s.).

Mənəvi iztirab dedikdə, şəxsiyyət hüquqlarına müdaxilə nəticəsində fiziki şəxsin daxili sabitliyini pozan, davamlı fiziki (xəstəlik, orqanların zədələnməsi və ya onlardan məhrum olma, fiziki narahatlıq, ağrı və s.) və (və ya) psixi əzab (depressiya, psixi xəstəlik və s.) çəkməsinə səbəb olan güclü neqativ emosional vəziyyət başa düşülür.

Mənəvi zərərə görə kompensasiya isə hüquqazidd əmələ (hərəkət və hərəkətsizlik) məruz qalmış şəxsin keçirdiyi mənəvi sarsıntı və (və ya) iztirabın unudulması, yaşama sevinci və arzusunun təkrar qazanılması, pozulan mənəvi tarazlığın bərpa edilməsi üçün bərabərləşdirmə vasitəsidir.

Mənəvi zərərin kompensasiyasının əsas məqsədi zərərçəkənin pozulan mənəvi tarazlığının bərpası ilə yanaşı, zərərvuranı gələcəkdə eyni əməllərin təkrar törədilməsindən çəkindirməkdən ibarətdir. Bu baxımdan zəzərvuranın üzərinə olduqca az və ya əhəmiyyətsiz məbləğdə təzminatın ödənilməsi vəzifəsinin qoyulması yolverilməzdir. Bununla yanaşı, mənəvi təzminatın həcmi elə balanslaşdırılmalıdır ki, bu, bir tərəfin təzminat hesabına zənginləşməsinə, digər tərəfin isə kasıblaşmasına səbəb olmasın.

Hüquqazidd əməl nəticəsində sonradan yaranmış maddi zərərlə bağlı tələb irəli sürmək hüququ istisna edilməsə də, mənəvi zərərə münasibətdə fərqli qayda tətbiq edilir. Belə ki, mənəvi zərərin kompensasiyası hüquqazidd əməlin məlum olan, habelə proqnozlaşdırıla bilən bütün mümkün nəticələri nəzərə alınmaqla həyata keçirilir. Bu baxımdan şəxsin eyni hüquqazidd əmələ istinadən yenidən mənəvi zərərin kompensasiyasını tələb etməsi yolverilməzdir. Həmin hüquqazidd əməlin yalnız əvvəlcədən proqnozlaşdırıla bilməyən, sonradan daha ağır nəticələrinin baş verməsi halında şəxs bu nəticələrə istinad etməklə əlavə mənəvi zərər tələbi irəli sürə bilər (məsələn, yol nəqliyyat hadisəsi nəticəsində ayağından zədə almış şəxsin mənəvi zərər tələbi təmin edildikdən sonra ayağının amputasiya olunması).

Nəzərə alınmalıdır ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 135.3-cü maddəsinə görə, heyvanlar və bitkilər mülki hüquqi mənada əşya hesab edilməsə də, əşyaların hüquqi vəziyyəti, əgər qanunvericilikdə ayrı qayda müəyyənləşdirilməyibsə, onlara da şamil edilir [1]. Bu baxımdan heyvan və bitkilərin məhv edilməsi və ya zədələnməsindən irəli gələn mənəvi zərər tələblərinə əmlak hüquqlarının pozulmasından yaranan mənəvi zərərlə bağlı qaydalar tətbiq edilir.

Bildirməyi zəruri hesab edirik ki, fiziki şəxslər işgüzar nüfuzlarını ləkələyən məlumatların yayılmasına görə həm mənəvi, həm də maddi zərərin kompensasiyasını tələb edə bildikləri halda, hüquqi şəxslər mənəvi zərər tələb edə bilməz. Onların işgüzar nüfuzlarının pozulması yalnız maddi zərərlə nəticələnə bilər.

Təkbətək edilən təhqir, böhtan mənəvi zərərə səbəb olmaqla mülki məsuliyyət yaradır [6].

Zərərvuran şəxsin eyni əmələ görə mülki, inzibati, yaxud cinayət məsuliyyətinə cəlb edilməsi zərərçəkənin ondan mənəvi zərərin kompensasiyasını tələb etmək hüququnu aradan qaldırmır.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/46944

2. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsinin şərh edilməsinə dair" 24 aprel 2020-ci il tarixli Qərarı. https://e-qanun.az/framework/45073

3. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair" 31 may 2002-ci il tarixli Qərarı. https://constcourt.gov.az/az/decision/65

4. “Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 noyabr 2008-ci il tarixli 7 nömrəli Qərarı. https://kec.az/CcMhc

5. “Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 24 dekabr 2025-ci il tarixli, 20 nömrəli Qərarı. https://supremecourt.gov.az/storage/pages/2308/sexsiyyet-huquqlarinin-mudafiesi-ne-dair-plenum-qerari.pdf

6. Təkbətək edilən təhqir, böhtan mənəvi zərərə səbəb olmaqla mülki məsuliyyət yaradır. https://supremecourt.gov.az/storage/pages/2312/media-seref-leyaqet-ve-isguzar-nufuzun-mudafiesi-huququ.pdf

7. Декларация основных принципов правосудия для жертв преступления и злоупотребления властью (принята на 96-ом пленарном заседании Генеральной Ассамблеи ООН 29 ноября 1985 года). https://kec.az/dtOXM

8. Закон СССР от 12 июня 1990 г. О печати и других средствах массовой информации. https://base.garant.ru/6321206/

Ахмедова Эльза Эльдар гызы.
старший преподаватель кафедры экономики
Азербайджанского государственного экономического университета
Алибейли-Абдуллаева Ламия Мамед гызы,
преподаватель кафедры экономики
Азербайджанского государственного экономического университета

СУЩНОСТЬ ПРАВА НА КОМПЕНСАЦИЮ МОРАЛЬНОГО ВРЕДА

РЕЗЮМЕ

Сущность каждого права находит свое выражение в содержании отношений, которые оно регулирует. Для определения сущности права на компенсацию морального вреда необходимо, прежде всего проанализировать понятие морального вреда и определить методы и средства его компенсации. В ряде нормативных актов, принятых в последние годы в Азербайджанской Республике, компенсация морального вреда определяется как средство защиты прав человека и основных свобод.

Ahmadova Elza Eldar,
Senior lecturer, Department of Economics,
Azerbaijan State University of Economics
Abdullayeva Lamiya Mammad,
Lecturer, Department of Economics,
Azerbaijan State University of Economics

THE ESSENCE OF THE RIGHT TO COMPENSATION FOR MORAL DAMAGE

SUMMARY

The essence of every right is expressed in the content of the relations it regulates. To determine the essence of the right to compensation for moral damages, it is necessary to analyze the concept of moral damages and determine the methods and means of compensating them. A number of regulations adopted in recent years in the Republic of Azerbaijan define compensation for moral damages as a means of protecting human rights and fundamental freedoms.

Redaksiyaya daxilolma tarixi: 07.06.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 16.06.2026
Çapa qəbul olunma tarixi: 16.06.2026